


# Tarix və mədəniyyətin qovuşuğunda yenidən doğulan şəhər

*Qarabağın incisi sayılan Şuşa həm tarixi, həm də mədəni baxımdan Azərbaycan üçün böyük əhəmiyyətə malikdir. XVIII əsrdə Pənahəli xan tərəfindən salınan şəhər əsrlər boyu musiqi, poeziya və sənət mərkəzi olmuş, Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan, Bülbül kimi dahilər burada yetişmişdir. Şuşa 28 il sonra - 2020-ci ilin 8 noyabrında Azərbaycan Ordusu tərəfindən işğaldan azad edildi. Zəfərdən sonra şəhərdə genişmiqyaslı bərpa və quruculuğa başlanıldı. Dövlətimiz tərəfindən böyük layihələr həyata keçirildi. Xurşidbanu Natəvanın evi, Vaqifin muzey-məqbərə kompleksi, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Şuşa qalası kimi abidələr restavrasiya edildi. Eyni zamanda yeni yollar çəkildi, enerji və su təchizatı sistemi yeniləndi, "ağıllı şəhər" konsepti əsasında müasir infrastruktur quruldu. Xarıbülbül Musiqi Festivalı və Vaqif Poeziya Günləri kimi tədbirlər bərpa olundu. Artıq şəhərə sakinlərin qayıdışı başlayıb, yeni yaşayış evləri, sosial obyektlər inşa edilir. Məktəblər, uşaq bağçaları, poliklinikalar və sosial xidmət mərkəzləri qurulur. Həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri, Şuşanın tarixi kimliyini qorumaqla yanaşı, müasir və dayanıqlı infrastrukturun yaradılmasına da imkan verir. Bu gün Şuşa yalnız keçmişin izlərini deyil, həm də gələcəyin perspektivlərini və Qarabağın inkişafı üçün atılan mühüm addımları özündə əks etdirir. Yeni yaşayış kompleksləri, səhiyyə və təhsil sahəsindəki islahatlar, iqtisadi imkanların artması və turizm potensialının yüksəlməsi Şuşanın yeni həyatına zəmin yaradır.*

Qədim Şuşa 2021-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı, 2023-cü ildə isə "Türk dünyasının mədəniyyət paytaxtı" elan olundu. Xarıbülbül Musiqi Festivalı və Vaqif Poeziya Günlərinin yerli və beynəlxalq sənətkarların iştirakı ilə keçirilməsi Şuşanı yenidən regional mədəniyyət mərkəzinə çevirir. Qarabağın sıldırım ətəklərində yerləşən Daşaltı kəndi həm coğrafi, həm də tarixi baxımdan strateji məkandır. 1992-ci ildə Azərbaycan Silahlı Qüvvələri kəndi düşməndən təmizləyib Şuşaya gedən yolu açmaq üçün "Daşaltı əməliyyat" keçirdi. Lakin təəssüf ki, zəif koordinasiya, əlverişsiz hava şəraiti səbəbilə əməliyyat uğursuzluqla nəticələndi. Onlarla Azərbaycan hərbçisi bu döyüşdə qəhrəmancasına şəhid oldu. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Daşaltı kəndi də işğaldan azad olundu və hazırda burada genişmiqyaslı bərpa-quruculuq aparılır.

Mayın 9-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunmuş Daşaltı kəndində inşa edilmiş yeni məscidin açılışında iştirak etdilər. Bu, Qarabağın yenidənqurma prosesində milli-mənəvi dəyərlərə verilən önəmin təzahürüdür. Daşaltı kənd məscidinin təməli 2021-ci ilin noyabrında Prezident İlham Əliyev tərəfindən qoyulmuşdu. Kəndin mərkəzində inşa olunan məscid Qarabağ memarlıq məktəbinə xas incəlik və harmoniya ilə layihələndirilib. İkimərtəbəli ibadətgah eyni anda 150-dən çox insanı qəbul edə bilər. Bu istiqamətdə görülən işlər dini və mədəni müxtəlifliyinə olan hörməti və mənəvi irsə bağlılığı nümayiş etdirir.

Ümumi sahəsi 65 hektar olan ərazidə 80 otaqlı hotel binası, kotteclər, ticarət və ictimai obyektlər, informasiya və sərgi mərkəzləri, həmçinin sənətkarlıq emalatxanaları tikiləcək. Təməli 2021-ci ilin noyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulan, altı korpusdan ibarət olan Müalicə-Sağlamlıq Mərkəzi 90 çarpayılıqdır. Qeyd edək ki, Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərdə sosial xidmətlərin, xüsusilə də səhiyyə infrastrukturunun bərpası və inkişafı istiqamətində ardıcıl və genişmiqyaslı tədbirlər həyata keçirir. Şuşada belə müasir tibb ocağının istifadəyə verilməsi bu siyasətin bariz nümunəsidir. Yeni mərkəz şəhər sakinləri ilə yanaşı, ətraf rayonların da əhalisinə tibbi xidmət göstərəcək. Şuşa Müalicə-Sağlamlıq Mərkəzi regionda əhalinin sağlamlığının qorunmasına, yüksəkkeyfiyyətli tibbi xidmətlərin əlçatan olmasına və Qarabağda dayanıqlı yaşayış üçün zəruri sosial infrastrukturun formalaşmasına mühüm töhfə verəcək.

Mayın 9-da Azərbaycanın mədəniyyət beşiyi, Qarabağın tacı sayılan Şuşada növbəti mühüm sosial layihəyə start verildi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhərdə inşa ediləcək dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etdilər. Bu hadisə həm də Böyük Qayıdış prosesinin daha bir əlamətdar mərhələsinin başlanğıcı kimi dəyərləndirilə bilər. Layihəyə əsasən yeni yaşayış kompleksi 6,2 hektarlıq ərazini əhatə edəcək və 16 binadan ibarət olacaq. Ümumilikdə, 274 mənzilin inşası nəzərdə tutulur. Ən vacibi isə odur ki, bu kompleks yalnız yaşayış binalarından ibarət deyil, burada müasir şəhərsalma tələblərinə uyğun olaraq sosial infrastruktur da yaradılacaq. Kompleksin tərkibində məktəb, uşaq bağçası, ictimai xidmət və iaşə obyektləri olacaq. Layihələndirmə zamanı şəhərin təbii relyefi, estetik görünüşü nəzərə alınıb. Məqsəd təkcə yeni binalar tikmək deyil, eyni zamanda şəhərin ruhuna uyğun mühit formalaşdırmaqdır. Hazırkı dövrədək Şuşada artıq 23 binadan ibarət 450 mənzil tikilərək istifadəyə verilib. Bu mənzillərə 376 ailə - ümumilikdə 1409 nəfər keçmiş məcburi köçkün qayıdıb. Dördüncü kompleksin istifadəyə verilməsi ilə bu rəqəmlərin daha da artacağı gözlənilir. Hədəf yalnız fiziki qayıdışı, insanların doğma torpaqlarda uzunmüddətli, təhlükəsiz və firavan yaşayışını təşkil etməkdir.

Şuşada həyata keçirilən layihələr bununla məhdudlaşmır. Dövlət və özəl sektor tərəfdaşlığı çərçivəsində şəhərin mərkəzi küçəsində 10 yaşayış və çoxfunksiyalı kompleksin tikintisi aparılır. Bu obyektlər arasında mehmanxanalar, ofis binaları və digər kommersiya obyektləri də yer alır. Tikinti və infrastruktur layihələri regionda iqtisadi fəallığı da artırır. Yeni yaşayış kompleksləri, ictimai obyektlər, hotellər və sənətkarlıq emalatxanaları təkcə yerli əhali üçün məşğulluq imkanları yaratmır, həm də investorlar və sahibkarlar üçün cazibədar mühit formalaşdırır. Qarabağda həyata keçirilən quruculuq gələcəyə inamın rəmzidir.

**Firuzə XUDİYEVA,**
**"Respublika".**